**"Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bu, tarixi həqiqətdir və beynəlxalq hüququn normalarına əsaslanır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır...". Bu fikirləri Azərbaycan Prezidenti demək olar ki, bütün mötəbər toplantılarda bəyan edir. Onun 2019-cu ilin oktyabrında "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI iclasının plenar sessiyasındakı çıxışı isə möhtəşəmliyi ilə yaddaşlara yazıldı.**




# Milli şüarımız: Qarabağ Azərbaycandır!

Dağlıq Qarabağ münaqişəsinin həllinə Ermənistanın qeyri-konstruktiv yanaşdığını forum iştirakçılarının diqqətinə çatdıran dövlət başçısı bildirdi ki, 2018-ci il sentyabrın 8-də Ermənistanın baş naziri Paşinyan demişdir: "Mən artıq bildirmişəm ki, Qarabağı Ermənistanın bir hissəsi kimi görürəm". Bir qədər sonra isə o, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltana demişdi: "Qarabağ münaqişəsini nizamlamağın gərəkli olub-olmadığına qərar verənlər arasında Ermənistan xalqı, Qarabağ xalqı və diaspor var, çünki bu, ümumermənі məsələsidir". 2019-cu il martın 29-da Nyu-Yorkda Ermənistanın müdafiə naziri David Tonoyan elan etdi ki, "ərazi qarşılığında sülh" formulunu dəyişib. Biz bunun tam əksini edəcəyik, yəni "yeni ərazilər üçün yeni müharibə". 2019-cu il mayın 9-da Paşinyan Şuşada belə bəyan etdi: "Qarabağ Ermənistandır. Və nöqtə". "Valday" forumunda Azərbaycan Prezidentinin bu sözləri isə Paşinyana tutarlı bir cavab oldu: "Qarabağ Azərbaycandır. Və nida işarəsi".

Bəli, sonralar, elə indi də dillər əzbəri olan, müxtəlif mərhələlərdə mübarizəmizin məğzini ifadə edən "Qarabağ Azərbaycandır!" şüarının tarixçəsi belədir...

Qarabağ uğrunda Azərbaycanın mübarizəsi demək olar ki, 30 il çəkdi. Hadisələrin başladığı 1988-ci ildən 2020-ci ilin noyabrınadək... Mübarizənin ilk mərhələsində "Qarabağ Azərbaycandır!" reallığını dünyaya sübut etmək üçün bütün mümkün variantlar işə salındı. Azərbaycan Prezidenti dünya birliyinə çatdırdı ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü, bütün dünya tərəfindən qəbul edilmiş BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı çərçivəsində həll edilməlidir. BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyri-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinin yerinə yetirilməsi üçün dünya güclərindən kömək istənildi.

2020-ci il sentyabrın 20-də Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının nümayəndələri qarşısında çıxışında müasir şərait nəzərə alınmaqla beynəlxalq təşkilatlarda islahatların aparılması, BMT Təhlükəsizlik Şurası qətnamələrinin icrasını təmin edə biləcək mexanizmin tətbiqi, azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıtması üçün səy göstərilməsi ilə bağlı çağırış etdi: "İyulun 17-dən etibarən sentyabr ayına qədər biz hərbi yük təyyarələri ilə Ermənistana min tondan artıq hərbi avadanlığın daşınmasının şahidi olduq" - deyən Azərbaycan Prezidenti daha sonra bildirdi: "Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik".

Təbii ki, bu çağırışlar da 30 il ərzində qəbul edilən qətnamələr, verilən qərarlar kimi cavabsız qaldı. Dünyadan ədalət uman Azərbaycan "Qarabağ Azərbaycandır!" reallığının təsdiqi üçün münaqişənin hərbi yolla həllini seçmək məcburiyyətində qaldı...

## O, qələbə əzmini artırdı, ərazi bütövlüyümüz təmin edildi

"Qarabağ Azərbaycandır!". Bu ifadə hər kəsin ilham mənbəyinə çevrilmişdi. Hər dəfə səsləndikcə torpaqlarımızın azad ediləcəyinə ümidləri artırır, mübarizə, döyüş ruhunu gücləndirirdi. O, tədricən qələbə simvoluna çevrilirdi. Sentyabrın 27-də isə ordumuz elə bu çağırışla hay verərək silaha sarıldı. Müharibənin ilk günündən əməliyyat üstünlüyünü ələ alan döyüşçülərimiz düşmənin gözünün odunu aldı. Hərbi əməliyyatlar geniş vüsət alaraq daha da şiddətlənirdi. Əməliyyat təşəbbüsünü itirən Ermənistan tez-tez qadağan edilmiş müharibə üsullarına əl atır, Qarabağdan aralıda yerləşən rayonların yaşayış məntəqələrini raket-artilleriya atəşinə tutmaqda davam edirdi. Bu zərbələrin məqsədi aydın idi. Ermənistan ərazisinə cavab atəşinin açılmasına nail olmaqla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzv dövlətlərindən yardım istəmək.

Sentyabrın 27-si səhər saatlarında başlayan döyüşlərin birinci həftəsi bunun Qarabağda əvvəllər də baş verən lokal müvəqqəti gərginlik deyil, böyük müharibə olduğunu açıq-aşkar göstərdi. Bunları BBC NEWS yaydığı məlumatda qeyd edirdi. Azərbaycan Prezidenti isə "Əl-Ərəbiyə" telekanalına müsahibəsində deyirdi: "Vəziyyət Azərbaycan ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatlarını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir".

Ordumuz hər gün irəliləyirdi, hər gün kəndlər, qəsəbələr, strateji yüksəkliklər azad edilir, böyük qələbəni yaxınlaşdırırdı. Şuşa döyüşləri isə tarixə yazıldı. Qalaya çevrilmiş Şuşanı 3 min erməni əsgəri müdafiə edirdi. Onlar Azərbaycanın xüsusi təyinatlılarının sıldırım qayalarla şəhərə daxil olacağını gözləmirdilər. Cəmi 400 nəfər xüsusi təyinatlı avtomat, bıçaq və qumbaralarla silahlanmışdı. Onların qarşısında isə tanklar, artilleriya, minaatanlar, pulemyotlar dayanmışdı, lakin Azərbaycan hərbçiləri hücuma keçdilər. Şuşa azad edildi. Bu, qələbəmizi təmin etdi. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların dayandırılması barədə üçtərəfli Bəyanat imzaladılar.

Dekabrın 10-da Azadlıq meydanında hərbi parad keçirildi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu meydanda Azərbaycan Prezidenti ilə birgə paradı qəbul etdi, çıxışlar oldu. Dövlət başçısı çıxışının sonunda demişdi: "Hər kəs bilir ki, Ermənistan rəhbərliyi bir il bundan əvvəl demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Mən isə demişdim ki, "Qarabağ Azərbaycandır və nida". Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır!..".

Bəli, hər bir əsgərimiz bu düşüncə ilə döyüşə yollanmışdı. "Qarabağ Azərbaycandır!" ifadəsi səsləndiyi gündən qələbəmizin rəmzinə çevrildi: Çıxışlarının birində Azərbaycan Prezidenti demişdi: "Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi".

Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin tam dayandırılması haqqında üçtərəfli sazişin imzalanması xəbəri alındıqdan sonra Azərbaycanın milyonlarla sakini küçələrə çıxdı. Ölkədə elə bir şəhər, yaxud kənd yox idi ki, orada Azərbaycan bayraqları dalğalanmasın, Prezident İlham Əliyevin portretləri və "Qarabağ Azərbaycandır!" plakatları ilə bəzədilməsin. O yerləri bərpa etmək, o yerlərə tezliklə qayıtmaq həvəsi daha da güclənmişdi. Hər kəsdə cəhənnəmə dönmüş yurd yerlərini cənnətə çevirmək əzmi vardı...

Azadlıq meydanında keçirilən qələbə paradında ölkə başçısı öz çıxışını belə tamamlamışdı: "İndi bizim üçün yeni dövr başlayır - quruculuq dövrü".

Beləliklə, ilk layihələrin icrasına başlanıldı. Prezidentin ehtiyat fondundan müvafiq vəsait ayrıldı. Təbii ki, ilk olaraq yolların çəkilişinə start verildi. Füzuli-Şuşa avtomobil yolu, Bərdə-Ağdam dəmir yolunun tikintisi sürətləndirildi. Yeni Horadiz-Zəngilan-Ağbənd dəmiryol xətti salındı ki, bu xətt də Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcəkdi. Şuşaya isə yeni avtomobil yolu çəkildi. Prezident onu "Zəfər yolu" adlandırdı. Böyük dağıntılara baxmayaraq, müharibənin bitməsindən heç bir il keçməmiş Füzuli aeroportu tikildi. Hazırda daha iki hava limanının tikintisi davam etdirilir. Əlbəttə, söhbət düşmənin xarabalığa çevirdiyi 10 min kvadratkilometrdən artıq ərazinin abadlaşdırılmasından gedir. Bütün bunlar isə əlbəttə ki, ciddi maliyyə tələb edir. Bu işlərin görülməsi üçün Qarabağ Dirçəliş Fondu yaradılıb. Ölkə daxilində tarixi abidələrlə birlikdə, işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, Ermənistanın işğalı nəticəsində ətraf mühitə dəymiş ziyanın aradan qaldırılması və işğaldan azad edilmiş torpaqlarda yaşayış üçün əlverişli şəraitin yaradılması Fondun əsas prioritetləridir.

Təxminən 30 il işğal altında qalmış ərazilərin yenidən qurulması əhalinin doğma yurd yerlərinə qayıdışının təmin olunması istiqamətində həyata keçirilən layihələr arasında bölgədə "yaşıl enerji" və "ağıllı kənd" layihələrinə də üstünlük verilir. Sonda bölgənin turizm məkanına çevrilməsi də əsas hədəf götürülüb. Bu işlərin uğurla icrası üçün bütün xalq əzmkarlıq nümayiş etdirir və dünyaya bir daha sübut edir ki: Qarabağ Azərbaycandır!

**Zümrüd QURBANQIZI,**
**"Respublika"**